# Elektron imtahan sistemi

Bu sistemin köməyi ilə namizəd imtahan üçün təqdim edilmiş test tapşırıqlarının elektron formada cavablandırılmasını həyata keçirir.

Namizəd imtahan zalına daxil olduqdan sonra onun üçün nəzərdə tutulmuş kompüterin qarşısında əyləşməli, ekrandakı məlumatlar ilə tanış olmalı və məlumatlar doğrudursa, “Məlumatlar düzgündür” düyməsinə klik etməlidir (Şəkil 1). Əgər məlumatlarda uyğunsuzluq olarsa, namizəd bu barədə zal nəzarətçisinə məlumat verməlidir.




Şəkil 1.

Namizəd şəxsiyyət vəsiqəsinin fərdi identifikasiya nömrəsini (FİN) daxil etmək üçün açılan müvafiq pəncərəyə FİN kodu daxil etməli və “Daxil ol” düyməsini sıxmalıdır (Şəkil 2).




Şəkil 2.

Namizəd FİN kodu daxil etdikdən sonra açılan səhifədə imtahan qaydaları ilə tanış olmalıdır (Şəkil 3).




Şəkil 3.

Zal administratoru tərəfindən imtahanın başlaması elan edilən zaman “İmtahana başla” düyməsini sıxmaq lazımdır. Bu zaman şəkil 4-də təsvir edilən imtahan səhifəsi açılacaq.




Şəkil 4.

Bu səhifədə namizəd müvafiq imtahanın adını klikləməli və şəkil 5-də təsvir edilən səhifədəki “Testi başla” və ardıcıl olaraq “Cəhdə başlayın” düymələrini sıxaraq imtahan səhifəsinə keçid etməlidir (şəkil 6).




Şəkil 5.




Şəkil 6.

İmtahan səhifəsi 2 əsas paneldən ibarətdir: test paneli və naviqasiya bloku.

***Test paneli***

Bu panelinin əsas təyinatı test tapşırıqlarının ekranda əks etdirilməsidir. Hər bir sualın sol tərəfində sualın sıra sayı, onun cavablandırılma vəziyyəti, neçə bal ilə qiymətləndirilməsi və sualı qeyd etmək üçün bayraq işarəsi əks olunub (sualın qeyd edilməsi – suala tərəddüdlə cavab verildiyi zaman yenidən həmin suala baxış keçirmək üçün istifadə olunur və qiymətləndirməyə heç bir təsir göstərmir).

Test tapşırıqlarından ilk 95 sual qapalı tipli (şəkil 7), tibb istiqamətində “Daxili xəstəliklər” blokundan, stomatologiya istiqamətində “Terapevtik stomatologiya” və ictimai səhiyyə istiqamətində “Epidemiologiya” fənnindən son 5 sual (96-100-cü test tapşırıqları) açıq formalı test tapşırıqlarıdır. Bunlardan 96-98-ci tapşırıqlar seçim tələb edən (şəkil 8), 99-100-cü tapşırıqlar isə uyğunluğun müəyyən edilməsini tələb edən açıq formalı test tapşırıqlarıdır (şəkil 9).




Şəkil 7.




Şəkil 8.




Şəkil 9.

Sualları cavablandırmaq üçün variantı mausun sol düyməsi ilə klikləmək kifayətdir.

“Əvvəlki suallar” və “Növbəti suallar” düymələrinin köməyilə səhifə yenilənən zaman cavablandırılan sualın sol tərəfində onun cavablandırılma statusu dəyişəcək və cavablandırılan sualın nömrəsi naviqasiya panelində boz rəngdə fon alacaq.




### *Naviqasiya paneli*

Naviqasiya panelində test tapşırıqlarının nömrələri test blokları üzrə bölünmüş şəkildə əks etdirilir. Burada əks olunmuş hər bir test tapşırığının nömrəsinin üzərinə basmaqla, həmin test tapşırığına və onun aid olduğu bloka keçid etmək mümkündür (şəkil 10).

### *İmtahan vaxtı*

Test imtahanı üçün hər namizədə 2 saat 30 dəqiqə vaxt ayrılır. İmtahanın başladığı andan etibarən “İmtahan vaxtı” panelində 2 saat 30 dəqiqədən başlayaraq geriyə sayım başlayır. İmtahan üçün ayrılmış vaxt bitdikdə test imtahanı avtomatik olaraq başa çatdırılır.
İmtahan vaxtı paneli test tapşırıqları panelinin yuxarısında yerləşdirilib.

### *İmtahanın sonu*

Naviqasiya blokunun sonunda yerləşən “İmtahanın sonu” düyməsi imtahanın vaxtından əvvəl başa çatdırılması üçün istifadə edilir. Bu düymə sıxıldığı zaman ekranda test tapşırıqlarının sıra nömrəsi və onların cavablandırılma vəziyyəti əks olunur və namizədə imtahanı vaxtından əvvəl bitirmək qərarının təsdiq edilməsi təklif edilir. Qərarın təsdiq edilməsi üçün “Hamısını göndər və testi sona çatdır”, qərardan imtina üçün “Cəhdə qayıt” düyməsi sıxılmalıdır. “Hamısını göndər və testi sona çatdır” düyməsi sıxıldıqda ekranda yeni dialoq pəncərəsində qərarın yenidən təsdiq olunması və ya imtina barədə məlumat əks olunur. Namizəd təsdiq düyməsini sıxarkən imtahan vaxtından əvvəl bitir və sistem işini avtomatik olaraq başa çatdırır. Namizəd imtahanı vaxtından əvvəl başa çatdırmaq qərarından imtina etdikdə isə imtahan davam etdirilir *(şəkil 10).*


Tibb istiqaməti üzrə II mərhələ imtahan
Cəhdin nəticəsi
Sual
Vəziyyət
1 Hələlik cavab verilməyib
2 Hələlik cavab verilməyib
3 Hələlik cavab verilməyib
4 Hələlik cavab verilməyib
5 Hələlik cavab verilməyib
6 Hələlik cavab verilməyib
7 Hələlik cavab verilməyib
8 Hələlik cavab verilməyib
99 Cavab saxlanıldı
100 Hələlik cavab verilməyib
İmtahana qayıdın
Hamısını göndər və imtahanı sona çatdır
İmtahana qayıdın
Hamısını göndər və imtahanı sona çatdır
Hamısını göndər və imtahanı sona çatdır?
Cavablarınızı təqdim etdikdən sonra dəyişdirə bilməyəcəksiniz.
Cavablandırılmayan tapşırıqlar: 98
İmtina
Hamısını göndər və imtahanı sona çatdır

Şəkil 10.